# İlk Avropa Oyunlarının ölkəmizin turizm imkanlarının təbliği baxımından əhəmiyyəti daha böyükdür

Birinci Avropa Oyunları ölkəmizdə uğurla davam edir. Hər ötən gün isə bizi bu möhtəşəm yarışın bağlanış gününə yaxınlaşdırır. İdmançılarımızın əldə etdiyi yüksək nəticələr hər birimizin üreyincədir. Belə ki, qızıl medalların sayına görə Azərbaycan ikinci yerdə qərarlaşıb və bu mövqeyi inamla qoruyub saxlayır. Xüsusi vurğulamaq lazımdır ki, tarixdə ilk dəfə baş tutan və bütün Avropanın təmsil olunduğu beynəlxalq idman yarışına məhz gənc müstəqil Azərbaycanın ev sahibliyi etməsi ölkəmizə verilən qiymətin, göstərilən böyük etimadın əyani sübutudur. Əlbəttə ki, bu, tarixdə böyük hadisədir. Çünki 1-ci Avropa Oyunları cəmi 24 il müstəqillik tarixini yaşayan Azərbaycanın bütün dünyada həm də yüksək səviyyəli idman ölkəsi kimi təqdim olunmasında mühüm rol oynayacaq. Eyni zamanda, Azərbaycanın adı "qoca qitənin" tarixində ilk Avropa Oyunlarının keçirildiyi və bu oyunların yüksək standartlarının müəyyən edildiyi bir ölkə kimi yadda qalacaq.

Qeyd edək ki, sürətli iqtisadi inkişaf 1-ci Avropa Oyunlarına ev sahibliyi hüququnun ölkəmizə verilməsində mühüm rol oynayıb. Tarixdə ilk dəfə keçirilən mötəbər yarışa ev sahibliyi hüququnun Azərbaycana verilməsi heç də təsadüfi deyil. Bu, ilk növbədə ölkəmizin bütün dünya üçün nümunə ola biləcək reallıqları ilə bağlıdır. Ev sahibliyi hüququnun ölkəmizə verilməsində mühüm rol oynayan amillər sırasında ilk olaraq ölkəmizin iqtisadi inkişafını vurğulamaq lazımdır. Çünki respublikamız özünün möhkəm daxili sabitliyi və dinamik sosial-iqtisadi tərəqqiyə rəvac verən inkişaf modeli ilə fərqlənir. Hazırda uğurla keçən yarışların Azərbaycanın malik olduğu yüksək dəyərlərin dünyada təbliği baxımından müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, möhtəşəm idman tədbirinin iqtisadi baxımdan ölkəmizə böyük dividendlər gətirəcəyi də şəksizdir. Bu baxımdan yaradılan idman və digər infrastruktur obyektləri bundan sonra da uzun illər xalqımıza xidmət edəcəkdir.

Digər tərəfdən, sözügedən yarışların Azərbaycanın turizm potensialının təbliğində mühüm rol oynayacağı danılmaz bir həqiqət olacaqdır. Həmçinin, ölkəmizin turizm potensialının təbliği baxımından əhəmiyyəti isə daha böyükdür. Məlumdur ki, Odlar diyarı sayılan Azərbaycan coğrafi mövqeyi, yeraltı və yerüstü sərvətləri, flora və faunasının zənginliyi, gözəl təbiəti, Xəzər dənizi, mədəni-tarixi irsi ilə geniş turzm potensialına malikdir. Respublikamızda turizmin müxtəlif növləri sürətlə inkişaf edir. Paytaxt Bakı ilə yanaşı bölgələrdə də müasir standartlara cavab verən turizm obyektləri tikilib istifadəyə verilib. Bildiyimiz kimi, Bakıda Avropa Oyunlarını izləmək üçün dünyanın 50-dən çox ölkəsindən 6 min idmançı, onların məşqçiləri və media işçiləri ilə yanaşı on minlərə turist də gəlmişdir. Yarışların keçirildiyi idman arenalarının xarici vətəndaşlarla daim dolu olması, şəhərimizin hər bir guşəsində onlarla rastlaşmağımız bir daha sübut edir ki, Azərbaycanın zəngin turizm potensialı ilə yanaşı, insanların qonaqpərvərliyi də böyük marağa səbəb olur.

May ayında kütləvi informasiya vasitələrində dərc olunmuş bir məqaləni xatırlatmaq yerinə düşər. Belə ki, Birləşmiş Ərəb Əmirliklərində yüksək tirajla dərc olunan "Əl-ittihaq" qəzetində Bakıda keçiriləcək 1-ci Avropa Oyunlarının yay turizminin inkişafına təkan verəcəyini yazmışdı. Belə ki, Azərbaycanın turzm imkanlarından bəhs edən "Sivilizasiyaların mərkəzində füsunkar təbiət sərlövhəli yazıda iyun-sentyabr aylarında Azərbaycanın turizm potensialının spesifik xüsusiyyətlərindən söz açılıb. Məqalədə göstərilir ki, Azərbaycan dövləti ölkənin coğrafi imkanlarını turizmin inkişafı istiqamətində dəyərləndirir və yay mövsümünün turistləri üçün təkcə günəşli çimərliklərində yox, həm də Qafqaz dağlarının ətəklərində, füsunkar təbiətin qoynunda müalicəvi resurslar, istirahət və gəzinti imkanları təqdim edir. Bu il Bakıda təşkil olunan ilk AO indiyədək idman hadisəsi olmaqla bərabər, həm də turizmin təbliğində və inkişafında yeni mərhələ kimi qiymətləndirilib. Qeyd olunub ki, Azərbaycan coğrafi mövqeyi, təbiəti, tarixi və müasir inkişaf potensialı baxımından hazırda postsovet məkanında ən çox üz tutulan turizm ölkəsidir. Bu mənada yay mövsümünə təsadüf edən ilk AO təkcə idman həvəskarlarının yox, eyni zamanda turistlərin də maraq dairəsində olacaq".

Bəli, xarici mətbuatda ölkəmizin turizm potensialının dəyərləndirilməsi bu gün Azərbaycan reallığında öz təsdiqini tapır. Təkcə bir faktı yada salaq ki, 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsinin Azərbaycanda keçirilməsindən sonra ölkəmizə gələn turistlərin sayı bir neçə dəfə artmışdır. Belə ki, 2012-ci ildə respublikamıza 2 milyondan çox, 2013-cü ildə 2 milyon 200 min, 2014-cü ildə isə 2,4 milyon nəfər turist gəlmişdir.

Bu il ilk Avropa Oyunlarının başlanmasına 2 ay qalmış, daha dəqiq desək 2-4 aprel tarixlərində Bakıda keçirilmiş "AİTF-2015" Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi də dediklərimizin əyani sübutudur. Belə ki, həm bu sərginin əhəmiyyəti, həm də burada iştirak edən ölkə və şirkətlərin sayı ildən-ilə artmışdır. Məsələn, 2002-ci ildə sərgiyə 14 ölkə qatılmışdırsa, bu il onların sayı 42-yə çatmışdır. Həmin ölkələrdən gələn 371 şirkət sərgidə ümumilikdə 80-dək turizm istiqamətini təsdiq etmişdir. Bu sərginin özəlliyi həm də ondan ibarətdir olmuşdur ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev və xanımı Mehriban Əliyeva həm Mədəniyyət və Turizm Nazirliyinin, həm də digər ölkələrin stendləri ilə tanış olmuşlar. Hər il ölkəmizdə bu cür tədbirin baş tutması onu göstərir ki, Azərbaycan hazırda turizm mərkəzi kimi bütün dünyada tanınır.

Bu baxımdan qeyd edə bilərik ki, ilk Avropa Oyunları da ölkəmizdə turizm sektorunun inkişafına ciddi təkan verəcək. Bütün dünyada belədir ki, hansısa ölkədə bənzər mötəbər tədbirlər keçiriləndə, bu mütləq turizmin inkişafına müsbət mənada təsir göstərir. Yəni turizmə maraq daha da artır. Onu da nəzərə çatdıraq ki, yarışlar təkcə Bakıda yox, həmçinin Mingəçevir şəhərində də keçirildi. Bu da imkan verdi ki, xarici turistlər Bakıdan Mingəçevirədək Azərbaycanın səfalı yerləri ilə tanış oldular. Eyni zamanda ölkəmizin bir çox bölgələrinə turistlərin ekskursiyaları da təşkil olundu. Ümumilikdə götürdükdə bütün bunlar nəinki turizmin, eyni zamanda ölkəyə investisiya axınının da artmasına təkan verəcək. Avropa Oyunlarının gəlirləri yalnız turistlərin xərcləyəcəyi vəsaitlə məhdudlaşmayacaq. Yarışlar zamanı ölkəmizin turizm potensialı ilə əlverişli coğrafi mövqeyi, zəngin iqlimi, flora və faunası, qədim tarixi və mədəniyyəti, nəhayət insanların qonaqpərvərliyi ilə tanış olan hər bir qonaq, təbii ki, sonrakı illərdə də ölkəmizə gəlməyə maraq göstərəcək. Belə bir fikri paytaxtımızda görüşüb söhbət etdiyimiz və dünyanın bir çox ölkələrindən təşrif buyurmuş xarici vətəndaşlar öz sözləri ilə də ifadə etdilər.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**